**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ƏLIRZA İMAMƏLI OĞLU KIYANI ŞAHMARS**

# RÜŞVƏTXORLUQ CİNAYƏTLƏRİ İLƏ MÜBARİZƏNİN CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ PROBLEMLƏRİ (AZƏRBAYCAN RESPUBLİKASI VƏ İRAN İSLAM RESPUBLİKASININ CİNAYƏT QANUNVERİCİLİYİ ƏSASINDA)

**5611.01 – cinayət hüququ və kriminoloqiya;**
**cəza-icra hüququ**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Samir Əhməd oğlu Vəliyev**
hüquq üzrə elmlər doktoru

**Rəsmi opponentlər:** **Habil Surxay oğlu Qurbanov**
hüquq üzrə elmlər doktoru,
professor

**Mahir Nəcəf oğlu Məmmədov**
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası DİN Polis Akademiyası**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi «01» oktyabr 2015-ci il tarixdə saat 10:00-da Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu nəzdində təşkil edilmiş FD.01.103 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1143, Bakı ş., Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat «____» __________ 2015-ci ildə göndərilmişdir.

**FD.01.103 Dissertasiya**
**Şurasının elmi katibi,**
**h.ü.f.d., dosent** **X.Ə.Bayramzadə**

# I. İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** Müstəqil Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət quruculuğu yoluna qədəm qoyduğu ilk günlərdən başlayaraq dövlətin qarşısında duran əsas məsələlərdən biri də ölkənin qanunvericilik bazasının yaradılması, inkişaf etdirilməsi, təkmilləşdirilməsi və bu qanunlardan cinayətkarlıqla mübarizədə səmərəli istifadə edilməsidir.

Azərbaycan Respublikasında əsaslı şəkildə aparılan islahatlar ölkə həyatının bütün sahələrini əhatə edir. Bu islahatlar dövlətin hüquq siyasətindən də yan keçməmişdir. Ölkənin hüquq sisteminin təkmilləşdirilməsi ümumdövlət siyasətinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Qanunçuluğun və hüquq qaydasının təmin edilməsi dövlət tərəfindən həyata keçirilən tədbirlərin qeniş dairəsini əhatə edir. Bu növ tədbirlərdən biri cinayətkarlıqla uğurlu mübarizə aparmaq istiqamətində qanunçuluğun möhkəmləndirilməsi və qanunların gücündən səmərəli istifadə etməkdir. Bu mənada Azərbaycan Respublikasında və İran İslam Respublikasında aparılan hüquq islahatları nəticəsində, müvafiq olaraq, 30 dekabr 1999-cu ildə Azərbaycan Respublikasının yeni qəbul edilmiş Cinayət Məcəlləsinin və 1990-cı illərin əvvəllərində cinayət hüququnda aparılan islahatlar nəticəsində vahid məcəlləşdirilmiş akt kimi İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanununun qəbulunun mühum rolu vardır.

Rüşvətxorluqla bağlı cinayətlər təkcə Azərbaycan Respublikasında və İran İslam Respublikasında deyil, bütün dünyada törədilən ən təhlükəli və nisbətən geniş yayılmış əməllərdən biridir. Bu növ əməllərin ictimai təhlükəliliyi beynəlxalq konvensiyalarla da diqqətə çatdırılır. 27 yanvar 1999-cu il tarixli korrupsiyaya görə cinayət məsuliyyətini nəzərdə tutan Avropa konvensiyasını, BMT-nin 31 oktyabr 2003-cü il tarixli korrupsiyaya qarşı mübarizə haqqında konvensiyasını buna misal göstərmək olar.

Rüşvətxorluqla bağlı cinayətlər hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdan amillərdən biri kimi çıxış edir, dövlət orqanlarının əhali arasında hörmət və nüfuzuna mənfi təsir göstərir, vətəndaşların hüquq və mənafelərinin, mühüm sosial prinsiplər olan ədalətliliyin və bərabərliyin pozulmasına səbəb olur, vətəndaşların müəyyən hissəsində vəzifəli şəxsləri ələ almaq yolu ilə problemlərini həll etmənin mümkünlüyü kimi neqativ təsəvvürlər yaradır.

«Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan

Respublikasının 13 yanvar 2004-cü il tarixli qanununda korrupsiyanın anlayışı aşağıdakı kimi müəyyən edilmişdir: «Korrupsiya – vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və ya səlahiyyətlərindən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır».

Korrupsiya cinayətləri dedikdə, dövlət hakimiyyətinin və dövlət qulluğunun nüfuzuna və digər qanuni maraqlarına bilavasitə qəsd edən, dövlət və yerli özünüidarə orqanları qulluqçuları və ya həmin orqanlarda digər vəzifə tutan şəxslər, yaxud kommersiya və ya qeyri-kommersiya təşkilatlarının qulluqçuları tərəfindən hər hansı rifahların hüquqazidd alınmasında və ya həmin rifahların hüquqazidd verilməsində ifadə olunan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan ictimai təhlükəli əməllər başa düşülür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 1 mart 2011-ci ildə Bakı Biznes Mərkəzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransda çıxışı zamanı korrupsiyaya münasibətini aşağıdakı şəkildə çox sərt ifadə etmişdir: «Korrupsiyaya qarşı mübarizə tədbirləri bir-iki illik proses və kampaniya deyil. İnsanları incidənlər və əsassız tələblər irəli sürənlər cəzalandırılmalıdır. Ölkənin bütün yerlərində bu məsələ ilə bağlı ciddi proseslər gedir. İlkin müsbət nəticələri görürük. Elə etməliyik ki, bu nəticələr daha da gözə görünən olsun. Daha da təsirli olsun. Bu proses bir illik, ya iki illik proses deyil. Bu kampaniya deyil. Bu bizim şuurlu seçimimizdir. Əgər biz doğrudan da ölkəni müasir ölkə kimi görmək, ölkədə bütün sahələrdə inkişafı görmək istəyiriksə, biz mütləq xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmalıyıq. Korrupsiya və rüşvətxorluq böyük bəladır. Böyük narahatçılıq yaradır və bizim üçün böyük ləkədir. Elə etməliyik ki, bütün sahələrdə, şəffaflıq təmin edilsin. Burada həm də inzibati tədbirlər görülür və görüləcək. Cəza tədbirləri görülür və görüləcək. Eyni zamanda biz struktur islahatlarını elə aparmaliyiq ki, korrupsiya, rüşvətxorluq üçün olan meydan tamamilə aradan götürülsün. Ancaq struktur islshatlarla istədiyimiz nəticəyə nail ola bilməyəcəyik. Ona görə bütün dövlət qurumları, bütün dövlət şirkətləri, yerli icra orqanları bilməlidirlər ki, hər bir məmur öz işində elə işləməlidir ki, həmişə üzü ağ,

alnı açıq olsun»[1].

Rüşvətxorluqla bağlı olan cinayətlər, bir tərəfdən, çox yüksək latentliyə, digər tərəfdən, fəal kriminogen təsirə malikdir. Bu əməllər çox zaman digər təhlükəli cinayətlərlə - talama, qanunsuz yolla əldə edilmiş pul vəsaitinin və əmlakın leqallaşdırılması və s. ilə əlaqədə törədilir. Qeyd edilən hallar rüşvətxorluqla bağlı olan cinayətlərin ictimai təhlükəliliyini daha da artırır. Rüşvətxorluqla bağlı olan cinayətlər cəmiyyətdə müsbət dəyişikliklərin qarşısını alan korrupsiya cinayətlərinin əsas təzahür forması olub mütəşəkkil cinayətkarlığın genişlənməsinə kömək edən ən əsas amillərdən biridir.

Qeyd edək ki, rüşvətxorluqla bağlı problem yeni deyildir və onun yaxın gələcəkdə tamamilə həll edilməsi də mümkünsüz görünür. Buna görə rüşvətxorluqla bağlı problemin tədqiqi həmişə aktual olmuşdur və aktual olaraq qalmaqdadır. Bundan əlavə, Azərbaycan Respublikası və İran İslam Respublikasının cinayət qanunvericiliyinin rüşvətxorluğa görə məsuliyyət müəyyən edən normalarının mükəmməl olmaması onların praktikada tətbiqi işinə mənfi təsir göstərilməsini labüd edir. Bu növ əməllərin tövsifi ilə bağlı praktikada səhvlərə yol verilməsinə də rast gəlinir. Belə vəziyyətin aradan qaldırılması müfəssəl və geniş tədqiqat işləri əsasında cinayət qanunvericiliyinin mövcud qüsurlarının aradan qaldırılaraq onun təkmilləşdirilməsi üzrə təkliflərin işlənib-hazırlanması və onların qanunvericilik qaydasında nəzərə alınması yolu ilə mümkündür.

Rüşvətxorluqla bağlı olan cinayətlər nisbətən geniş yayılmış və təhlükəli cinayətlərdən sayılır. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin hesabatına əsasən 2014-cü il ərzində Baş İdarənin İstintaq şöbəsi tərəfindən 333 şəxs barəsində 206 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir. Həmin cinayət işlərindən 16 şəxs barəsində 9 iş rüşvət alma (passiv rüşvətxorluq), 5 şəxs barəsində 4 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 43 şəxs barəsində 22 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 6 şəxs barəsində 6 iş vəzifə səlahiyyətlərini aşma və s. faktlarla əlaqədar olmuşdur[2].

---

[1]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1 mart 2011-ci ildə Bakı Biznes Mərkəzində reqionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda çıxışı // «Azərbaycan» qəzeti, 01 mart 2011-ci il.

[2]Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir / http://www.genprosecutor.gov.az/?/az/news/view/900/

Azərbaycan Respublikasında korrupsiya ilə mübarizəyə yönələn qanunun qəbul edilməsi, bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər fonunda həmin cinayətlərin öyrənilməsi və onun tədqiqat obyekti kimi seçilməsi özünün aktuallığı ilə fərqlənir. Bu mövzu həmçinin İran İslam Respublikası üçün də eyni dərəcədə aktualdır.

**Problemin araşdırılma dərəcəsi.** Araşdırılan problemlə bağlı həm əvvəllər, həm də son dövrdə xarici ölkə alimləri, o cümlədən Rusiya kriminalistləri tərəfindən bir sıra tədqiqat işləri aparılmışdır. Onların arasında xüsusən A.A.Piontkovski, A.N.Traynin, B.V.Voljenkin, L.D.Qauxman, O.X.Kaçmazov, N.F.Kuznetsova, Y.İ.Lyapunov və başqalarının əsərləri diqqətəlayiq yer tutur. Biz tədqiqat gedişində həmin əsərləri nəzərdən keçirmiş, onların müsbət cəhətlərindən bəhrələnməyə səy göstərmişik. Qeyd edək ki, Azərbaycan Respublikasında və İran İslam Respublikasında rüşvətxorluq cinayətlərinin araşdırılmasına ayrıca tədqiqat işinin həsr edilməsinə rast gəlinmir. Göstərilən cinayətlərlə bağlı problemin müəyyən cəhətləri Azərbaycan Respublikasında hüquqşünas alimlərdən F.Y.Səməndərov, İ.M.Rəhimov, K.N.Səlimov, Ç.F.Mustafayev, M.B.Əhmədov, H.S.Qurbanov, R.İ.Quliyev, E.M.Əfəndiyev, Ə.H.Hüseynov və başqaları tərəfindən yalnız cinayət hüququnun ayrı-ayrı mövzuları üzrə yazılmış monoqrafiya, dərslik, kommentariya və məqalələr çərçivəsində nəzərdən keçirilmişdir. İran İslam Respublikasında qeyd olunan cinayətlərlə bağlı problemi Hüseyn Mirməhəmməd Sadiqi, Huşəng Şambəyati, İrəc Qulduzyan və başqaları tədqiq etmişlər. Lakin onların tədqiqatlarında problemin bütün cəhətləri tam araşdırılmamış, müəyyən məsələlər həll edilməmiş qalmışdır.

Beləliklə, təqdim edilən dissertasiya həm Azərbaycan Respublikasında, həm də İran İslam Respublikasında rüşvətxorluq cinayətləri ilə bağlı problemin kompleks şəkildə öyrənilməsinə həsr edilmiş ilk monoqrafik tədqiqat əsəridir.

**Tədqiqatın obyektini** rüşvətxorluq cinayətlərinin törədilməsi ilə bağlı meydana çıxan ictimai münasibətlərin məcmusu təşkil edir.

**Tədqiqatın predmeti** isə Azərbaycan Respublikasının və İran İslam Respublikasının rüşvətxorluqla bağlı müasir və əvvəllər qüvvədə olan cinayət qanunvericiliyindən, habelə digər xarici ölkələrin cinayət qanunvericiliyindən və beynəlxalq hüquqi aktlardan, müvafiq cinayət hüquqi ədəbiyyatlardan, qeyd olunan cinayətlərin vəziyyəti və dinamikasına dair statistik göstəricilərdən, müvafiq cinayət-hüquq normalarının tətbiqinin məhkəmə-istintaq təcrübəsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini

Azərbaycan Respublikasının və İran İslam Respublikasının cinayət qanunvericiliyi üzrə rüşvətxorluq cinayətləri ilə bağlı problemlərin nəzəri və təcrübi cəhətlərinin kompleks şəkildə hərtərəfli müqayisəli tədqiqi, göstərilən əməllərin ictimai təhlükəlilik dərəcəsinin müəyyən edilməsi, rüşvətxorluğa görə məsuliyyət müəyyən edən normaların təkmilləşdirilməsi üzrə elmi cəhətdən əsaslandırılmış təkliflərin verilməsi, habelə həmin cinayətlərin qarşısının alınması və xəbərdar edilməsi üzrə hüquqmühafizə orqanları üçün müvafiq tövsiyələrin hazırlanması təşkil edir.

Göstərilən məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- rüşvətxorluğla bağlı olan əməllərə görə məsuliyyət nəzərdə tutan qanunvericiliyin inkişaf tarixinin öyrənilməsi;
- rüşvətxorluğla bağlı olan cinayətlərin ictimai təhlükəliliyinin, vəziyyətinin və dinamikasının araşdırılması;
- Azərbaycan Respublikasının cinayət qanunvericiliyində rüşvətxorluğla bağlı olan cinayət tərkiblərinin tədqiq edilməsi;
- İran İslam Respublikasının cinayət qanunvericiliyində rüşvətxorluğla bağlı olan cinayət tərkiblərinin tədqiq edilməsi;
- digər ölkələrin cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyət məsələlərinin və onunla mübarizənin əsas xüsusiyyətlərinin öyrənilməsi;
- Azərbaycan Respublikasının və İran İslam Respublikasının rüşvətxorluq üzrə qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi və müvafiq təkliflərin verilməsi;
- rüşvətxorluqla bağlı olan cinayətlərin kriminoloji xüsusiyyətlərinin öyrənilməsi, habelə bu növ cinayətlərin qarşısının alınması və xəbərdar edilməsi üzrə müvafiq tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodologiyası və metodları.** İşdə metodoloji baza kimi sosial hadisələri və prosesləri, rüşvətxorluqla bağlı olan cinayətlərin mahiyyətinə aid qanunauyğunluqları dərk etməyə, tədqiq və təcrübədə tətbiq etməyə imkan verən dialektik dərketmənin ümumi metodu əsas götürülmüşdür. Bundan əlavə, tarixi-hüquqi, fəlsəfi, məntiqi-hüquqi, müqayisəli-hüquqi, sistemli yanaşma, modelləşdirmə və sair metodlardan istifadə edilmişdir.

**Tədqiqatın nəzəri bazası** qismində cinayət hüququ, kriminologiya, cəza-icra hüququ sahəsində tədqiqatçı alimlərin rüşvətxorluqla bağlı olan cinayətlərin tədqiqinə həsr edilmiş əsərləri çıxış edir.

**Tədqiqatın normativ bazasını** Azərbaycan Respublikasının və İran İslam Respublikasının hazırda qüvvədə olan və əvvəlki cinayət

qanunvericilikləri, habelə tədqiq edilən problemlə bağlı digər qanunvericilikləri, rüşvətxorluq cinayətləri ilə bağlı müddəaların olduğu beynəlxalq hüquqi aktlar, habelə ayrı-ayrı xarici ölkələrin hazırda qüvvədə olan cinayət qanunları təşkil edir.

**Tədqiqatın empirik bazasını** Azərbaycan Respublikası məhkəmələrində rüşvətxorluğla bağlı olan cinayətlərə dair baxılmış konkret işlər, Azərbaycan Respublikası DİN-in respublikada qeydə alınmış rüşvətxorluq cinayətləri ilə bağlı statistik göstəriciləri təşkil edir. İran İslam Respublikası məhkəmələrinin icraatında rüşvətxorluq cinayətləri ilə bağlı mövcud olmuş cinayət işləri və statistik məlumatlar da tədqiqatın empirik (təcrübi) bazasına daxildir.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, dissertasiya işində Azərbaycan Respublikasının və İran İslam Respublikasının hazırda qüvvədə olan cinayət qanunvericiliyində rüşvətxorluqla bağlı olan əməllərə görə məsuliyyət müəyyən edən normalarının tətbiqi problemləri kompleks şəkildə tədqiq edilmiş, rüşvətxorluqla bağlı olan cinayətlərin kriminoloji xüsusiyyətləri, xarici ölkələrin cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyət məsələləri və onunla mübarizənin əsas xüsusiyyətləri öyrənilmişdir. Tədqiqatda bu iki ölkənin cinayət qanunvericiliyinin rüşvətxorluqla bağlı olan cinayətləri ilə bağlı normalarının təkmilləşdirilməsi üzrə təkliflər irəli sürülmüş, tədqiq edilən cinayətlərin tövsifinin mübahisəli məsələləri aydınlaşdırılmışdır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılardır:**

1. Azərbaycan Respublikasının CM-nin 311, 312 və 312-1-ci maddələrində rüşvətin predmeti kimi göstərilmiş «maddi və sair nemət» ifadəsində «maddi» və «sair nemət» sözləri arasında «və» bağlayıcısından istifadə olunmuşdur. «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda da həmin sözlər arasında «və» bağlayıcısı işlədilmişdir. Hesab edilir ki, bu sözlərin bir-biri ilə «və» bağlayıcısı ilə birləşdirilməsi düzgün deyildir, «maddi» sözündən sonra «və» bağlayıcısının işlədilməsi çatdırılması nəzərdə tutulan fikri ziddiyyətli edir. Belə başa düşülür ki, rüşvət alma, rüşvət vermə və nüfuz alveri cinayətlərinin törədilməsi üçün cinayətin predmeti kimi tək maddi nemətin verilməsi kifayət deyildir, maddi nemət ilə yanaşı sair nemət də verilməlidir, istənilməlidir, təklif edilməlidir və s. Halbuki tək maddi nemətin və ya sair nemətin verilməsi həmin cinayətlərin törədilməsi üçün kifayət edəcəkdir. Odur ki, CM-nin 311, 312 və 312-1-ci maddələrində «maddi və sair nemət» sözləri arasında olan «və» bağlayıcısının «və ya» bağlayıcısı ilə əvəz olunması təklif edilir.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 312-ci maddəsinin qeydinin aşağıdakı redaksiyada verilməsini təklif edilir: «Rüşvət verən şəxs vəzifəli şəxs tərəfindən tətbiq edilən hədə-qorxu nəticəsində rüşvət verdikdə və ya rüşvət vermə haqqında müvafiq dövlət orqanına könüllü məlumat verdikdə cinayət məsuliyyətindən azad edilir və rüşvət qismində verilən pul və ya əmlak ona qaytarılır».

3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311-ci maddəsinin aşağıdakı redaksiyada verilməsi məqsədəuyğun sayılır:

"311.1. Rüşvət alma, yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və ya sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə  dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.2. Bu Məcəllənin 311.1.-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər:

311.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;

311.2.2. xeyli miqdarda törədildikdə;

311.2.3. təkrar tşrədildikdə;

311.2.4. vəzifəli şəxs tərəfindən qanunsuz hərəkətlərə (hərəkətsizliyə) görə rüşvət alma –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşqul olma hüququndan məhrum edilməklə, səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

311.3. Bu Məcəllənin 311.1 və ya 311.2-ci maddələri ilə nəzərdə tutulmuş əməllər:

311.3.1. mütəşəkkil dəstə tərəfindən törədildikdə;

311.3.2. külli miqdarda törədildikdə;

311.3.3. hədə-qorxu tətbiq olunmaqla törədildikdə-

on iki ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd: «Bu Məcəllənin 311.2.2.-ci maddəsində «xeyli miqdar» dedikdə üç min manatdan on min manatadək olan məbləğ, 311.3.3.-cü maddəsində «külli miqdar» dedikdə on min manatdan yuxarı olan məbləğ başa düşülür".

4. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə rüşvətxorluqda

vasitəçiliyə görə məsuliyyət müəyyən edən yeni 312-2-ci maddənin daxil edilməsi və onun aşağıdakı redaksiyada verilməsi təklif olunur:

«Maddə 312-2. Rüşvətxorluqda vasitəçilik

Rüşvətxorluqda vasitəçilik, yəni rüşvət alanla rüşvət verən arasında rüşvət alma və rüşvət vermə ilə bağlı razılaşmanın əldə edilməsinə və həyata keçirilməsinə kömək etmə –

beş yüz manatdan min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır».

5. İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanununda müəyyən növ cinayətlər, o cümlədən röşvətxorluq cinayətlərinə görə hüquqi şəxslərin cinayət məsuliyyətinin müəyyən edilməsi məqsədəuyğun sayılır. Hüquqi şəxslər barəsində aşağıdakı cinayət-hüquqi tədbirlərin müəyyən edilməsi təklif olunur: cərimə; müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə; hüquqi şəxsin ləğvi.

6. İran İslam Respublikasının cinayət qanunvericiliyində pərakəndəlik mövcud olduğundan, ölkədə bu sahədə islahatın aparılması zəruri sayılır. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi kimi İran İslam Respublikasının cinayət qanunvericiliyinin də vahid sistemə salınması, törədilmiş əməllərə görə məsuliyyət müəyyən edən və başqa qanunlarda təsbit edilmiş bütün normaların bir qanunda - İslam Cinayət Cəzaları Qanununda cəmləşdirilməsi əsaslandırılır.

7. İran İslam Respublikasında alınan rüşvətin miqdarına uyğun məsuliyyətin müəyyən differensiasiyası aparılsa da (məbləğ artdıqca sanksiya da sərtləşir), rüşvətxorluğa görə cinayət məsuliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müqayisədə ümumilikdə xeyli dərəcədə yüngüldür və bu növ cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə uyğun deyildir. Odur ki, İran İslam Respublikasında rüşvətxorluq cinayətlərinə görə məsuliyyətin sərtləşdirilməsi məqsədəuyğun sayılır.

8. Qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma əməlində həmçinin digər tövsifedici əlamət sayılan külli miqdar əlaməti mövcud olduqda, əməl həmin cinayət nəticəsində qrupun hər bir iştirakçısına çatmış və ya çatmalı olan məbləğlə deyil, qrup tərəfindən rüşvət kimi alınmış bütün əmlakın həcmi ilə CM-nin 311.3.1 və 311.3.3-cü maddələri ilə tövsif olunmalıdır.

9. Rüşvət vermə haqqında müvafiq dövlət orqanlarına məlumatın rüşvət vermə və alma faktından hansı vaxtın ötməsindən sonra verilməsinin CM-nin 312-ci maddəsinin tətbiqi üçün əhəmiyyəti yoxdur. Əsas odur ki, bu haqda məlumat könüllü və hüquq mühafizə orqanlarına həmin fakt bəlli olmamışdan əvvəl verilmiş olsun. Şəxsin konkret cinayət işi üzrə

dindirilməsi üçün istintaq orqanına çağrılması ilə əlaqədar rüşvət verməsi barədə məlumat verməsi əməlində könüllü məlumat vermə əlaməti mövcud olmayacaqdır. İstintaq prosesi zamanı şəxsin hüquq mühafizə orqanlarına məlum olmayan rüşvət vermə hadisəsi barədə məlumat verməsi isə könüllü məlumat vermə kimi qiymətləndirilməlidir.

10. Sovet hakimiyyəti dövründə həm keçmiş SSRİ, həm də Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumları tərəfindən rüşvətxorluq cinayətlərinin izahı ilə bağlı bir neçə qərar qəbul edilmişdir. Müstəqilliyin bərpasından sonra isə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən bu növ cinayətlərin izahı ilə bağlı heç bir qərar qəbul olunmamışdır. Əvvəlki cinayət qanunvericiliyi ilə müqayisədə hazırda qüvvədə olan CM-də rüşvətxorluq cinayətlərinin dispozisiyası xeyli fərqli məzmunda müəyyən edildiyindən və təcrübədə həmin cinayətlərinin tövsifi ilə baglı müəyyən çətinliklər olduğundan, bu növ cinayətlər üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən müvafiq qərarın qəbul olunması məqsədəuyğun sayılır.

11. Azərbaycan Respublikası Daxili İşlər, Ədliyyə Nazirliklərinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və digər orqanların nəzdində cinayətkarlığın statistikası, öyrənilməsi, ümumiləşdirilməsi məsələləri ilə məşğul olan struktur qurumların işinin gücləndirilməsi, onların komplektləşdirilməsində hüquqşunas alimlərdən istifadə olunması zəruri sayılır.

12. Korrupsiya ilə mübarizənin Sinqapur üsulunda üç prinsipin rəhbər tutulduğu müəyyən edilir: 1) meritokratiya prinsipi (hakimiyyətin layiqli, kreativ, bacarıqlı insanlar tərəfindən idarə olunması); 2) praqmatizm prinsipi (ölkə üçün ən səmərəli təcrübənin seçilməsini və onun yaradıcılıqla inkişaf etdirilməsi); 3) şəffaflıq prinsipi. İran İslam Respublikasında korrupsiya ilə mübarizənin Sinqapur strategiyasının tətbiqi məqsədəuyğun sayılır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada formulə edilmiş müddəa və nəticələrdən, verilən təkliflərdən Azərbaycan Respublikasının və İran İslam Respublikasının cinayət qanunvericiliyi təkmilləşdirilərkən qanun yaradıcılığı fəaliyyətində, məhkəmə-istintaq təcrübəsində cinayət qanunvericiliyinin rüşvətxorluqla bağlı olan cinayətlərə görə məsuliyyət müəyyən edən normalarının tətbiqi prosesində, rüşvətxorluq cinayətlərinin qarşısının alınması və xəbərdar edilməsi üzrə tədbirlərin işlənib hazırlanmasında istifadə edilə bilər.

Dissertasiyanın materialından universitetlərin hüquq fakültələrində

cinayət hüququ kursunun tədrisi prosesində, müvafiq dərslik, dərs vəsaitləri və cinayət qanunvericiliyinin şərhləri yazılarkən istifadə oluna bilər. Tədqiqat işi rüşvətxorluq cinayətləri ilə bağlı təlimi inkişaf etdirəcək, bu barədə elmi-nəzəri biliyi dərinləşdirəcəkdir. Müdafiyə çıxarılan müddəa və nəticələr cinayət qanunvericiliyinin rüşvətxorluq cinayətlərinə görə məsuliyyət müəyyən edən normalarının və onların tətbiqi təcrübəsinin təkmilləşdirilməsinə kömək edəcəkdir.

Bütövlükdə tədqiqatdan doğan və formulə edilən müddəalar Azərbaycan Respublikasında və İran İslam Respublikasında rüşvətxorluğa qarşı mübarizə ilə bağlı qanuvericiliyin düzgün tətbiqinə, vətəndaşlarda ədalət hissinin formalaşmasına, qanunçuluq rejiminin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda yerinə yetirilmişdir. İşin əsas nəzəri müddəaları, qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər çap edilmiş məqalələrdə və elmi-praktiki konfranslarda edilmiş məruzələrdə şərh edilmişdir.

**Tədqiqat işinin quruluşu.** Dissertasiya işi girişdən, problemli məsələlərin araşdırıldığı 11 paraqrafı əhatə edən üç fəsildən, nəticədən, habelə istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## II. İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı, tədqiqat mövzusuna dair problemin öyrənilmə vəziyyəti, obyekti və predmeti, məqsəd və vəzifələri, metodologiyası və metodları, tədqiqatın nəzəri, normativ, empirik (təcrübi) bazaları, elmi yeniliyi, müdafiəyə təqdim olunan əsas müddəaları, dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti şərh olunur, həmçinin tədqiqatın nəticələrinin aprobasiyası verilir.

Dissertasiyanın **birinci fəsli «Azərbaycan Respublikasının cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyət nəzərdə tutan əsas cinayət tərkiblərinin və onların tövsifedici əlamətlərinin hüquqi təhlili»** adlanır və bu fəsil beş paraqrafdan ibarətdir.

**Fəslin birinci paraqrafında «Azərbaycan Respublikasında rüşvətxorluğa görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında»** məsələlər araşdırılır.

Bu paraqrafda, Azərbaycan SSR-in birinci Cinayət Məcəlləsi 1922-ci, ikinci 1927-ci, üçüncü 1960-cı və son Azərbaycan Respublikasının Cinayət Məcəlləsi olan 30 dekabr 1999-cu ildə qəbul edilmiş və 2000-ci il

sentyabrın 1-dən qüvvəyə minmiş qanunvericiliklərdə rüşvətxorluğla bağlı cinayətlərin ümumi anlayışı, cinayət-hüquqi təhlili, tövsifedici əlamətləri və s. məsələlər ətraflı araşdırılmışdır.

**Fəslin ikinci paraqrafında «Korrupsiya və rüşvətxorluğun anlayışı»** tədqiq edilir.

Bu paraqrafda, korrupsiya və rüşvətxorluğun anlayışı verilir və qeyd edilir ki, rüşvətxorluq cinayətləri, yəni rüşvət alma (passiv rüşvətxorluq) və rüşvət vermə (aktiv rüşvətxorluq) korrupsiyanın ən geniş yayılmış və təhlükəli təzahür formalarındandır.

Bu cinayətlərin ictimai təhlükəliliyi ondan ibarətdir ki, onlar hakimiyyətin və dövlət idarəçiliyinin əsaslarını sarsıdan amillərdən biri kimi çıxış edir, dövlət orqanlarını əhali arasında hörmətdən və nüfuzdan salır, vətəndaşların hüquq və mənafelərinin, mühüm sosial prinsiplər olan ədalətliliyin və bərabərliyin pozulmasına səbəb olur, vətəndaşların müəyyən hissəsində vəzifəli şəxsləri ələ almaq yolu ilə problemlərini həll etmənin mümkünlüyü təsəvvürünü yaradır.

Rüşvətxorluq cinayətləri bir tərəfdən çox yüksək latentliyə, digər tərəfdən fəal kriminogen təsirə malikdir. Bu əməllər digər təhlükəli cinayətlərlə - talama, qanunsuz yolla əldə edilmiş pul vəsaitinin və əmlakın leqallaşdırılması və s. ilə əlaqədə törədilir. Qeyd edilən hallar rüşvətxorluq cinayətlərinin ictimai təhlükəliliyini daha da yüksəldir.

Bu **fəslin üçüncü paraqrafında «Rüşvətxorluğun obyektiv əlamətləri»** araşdırılır.

Törədilən bütün cinayətlər məhz müəyyən ictimai münasibətlərə qəsd etdiyi üçün ictimai təhlükəli hesab olunurlar. İctimai münasibətlərə qəsd etməklə cinayət insanın şəxsiyyətinə, əmlakına, cəmiyyətdə mövqeyinə və s. insani dəyərlərə ziyan yetirir.

Qanunverici və məhkəmə cinayətin həm hüquqi, həm də sosial-siyasi cəhətdən qiymətləndirilməsini konkret cinayətin qəsd etdiyi obyektin sosial dəyərini nəzərə almaqla həyata keçirir. Obyektin sosial dəyəri öz növbəsində obyektə edilən qəsdin ictimai təhlükəlilik dərəcəsini göstərir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin XI bölməsinə daxil olan cinayətlərin, o cümlədən rüşvətxorluq cinayətlərinin cinsi obyektini bütövlükdə dövlət hakimiyyətinin normal fəaliyyətini təmin edən ictimai münasibətlər, XXXIII fəslinə daxil olan cinayətlərin, o cümlədən rüşvətxorluq cinayətlərinin növ obyektini dövlət, yerli özünüidarə orqanlarının, habelə kommersiya və ya qeyri-kommersiya təşkilatlarının qanuni fəaliyyətini, nüfuz və maraqlarını təmin edən ictimai münasibətlər təşkil edir.

Rüşvətxorluq cinayətlərinin bilavasitə obyekti dövlət hakimiyyətinin, dövlət qulluğunun, yerli özünüidarəetmə orqanlarında, habelə kommersiya və qeyri-kommersiya təşkilatlarında qulluğun normal həyata keçirilməsini təmin edən ictimai münasibətlərdir.

Rüşvətxorluğun predmetini maddi və sair nemətlər, imtiyaz və ya güzəşt təşkil edir. Rüşvətxorluq cinayətlərinin predmeti kimi maddi və sair nemətlərə pul, əmlak (daşınar və daşınmaz əmlak, bölünər və bölünməz, əvəzedilməz və əvəzedilən əşyalar, istehlak edilə bilən və bilməyən əşyalar və s.), əmlak xarakterli mənfəət, daşınar və ya daşınmaz əşyalarda və ya hüquqlarda ifadə edilən istənilən aktivlər, habelə belə aktivlərə mülkiyyət hüququnu və ya onlarla bağlı marağı təsdiq edən hüquqi sənədlər, qiymətli kağızlar, başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar (qeyri-maddi əmlak nemətləri), müxtəlif xarakterli işlərin görülməsi və ya xidmətlərin göstərilməsi və s. daxildir.

Obyektiv cəhətdən həm rüşvət alma (passiv rüşvətxorluq), yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, həm də rüşvət vermə (aktiv rüşvətxorluğ), yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt verilməsi formal tərkibli cinayətlərdir.

Bu **fəslin dördüncü paraqrafında «Rüşvətxorluğun subyektiv əlamətləri»** tədqiq edilir.

Cinayətin subyekti cinayət tərkibinin dörd zəruri elementindən biridir və cinayətin subyektinin olması cinayət məsuliyyəti üçün mühüm şərtdir. Onun olmaması konkret cinayət tərkibinin mövcud olmadığını və beləliklə, cinayət məsuliyyəti üçün əsas olmadığını göstərir.

Rüşvət alma (passiv rüşvətxorluq) cinayəti xüsusi subyektə malikdir, onun subyekti on altı yaşına çatmış anlaqlı vəzifəli fiziki şəxs ola bilər. Rüşvət vermə (aktiv rüşvətxorluq) cinayətinin subyekti isə ümumidir, yəni on altı yaşı tamam olmuş hər hansı anlaqlı fiziki şəxsdir. Vəzifəli şəxsin qərarına qanunsuz təsir ğöstərmə (nüfuz alveri) cinayəti isə on altı yaşına çatmış istənilən anlaqlı fiziki şəxsi nəzərdə tutur.

Rüşvətxorluq subyektiv cəhətdən yalnız düzünə, yəni birbaşa

qəsdlə törədilə bilər, həm də onun başa çatdırılması üçün rüşvətverən və rüşvətalanın rüşvətvermə-rüşvətalmada ifadə edilən vahid niyyətinin olması zəruridir.

Beləliklə, təqsirkar rüşvət verməyini və rüşvət aldığını dərk edir və bunu arzu edir.

Rüşvət alma cinayətinin obyektiv cəhəti: a) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi; b) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair neməti, imtiyazı və ya güzəşti alması; c) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifi və ya vədi qəbul etməsi ilə xarakterizə olunur.

Vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı əməl (hərəkət və hərəkətsizlik) qanunla və ya müqavilə əsasında vəzifəli şəxsə həvalə edilmiş səlahiyyətlərin icrasından irəli gələn əməli (hərəkəti və ya hərəkətsizliyi) nəzərdə tutur.

Rüşvət verənin xeyrinə edilməli olan hərəkət (hərəkətsizlik) vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) çərçivəsindən kənara çıxdıqda, lakin onun öz qulluq mövqeyinə görə belə hərəkətin (hərəkətsizliyin) icrasına yardım edə bildiyi hallarda (vəzifəli şəxsin öz qulluq mövqeyinə görə rüşvət verənin xeyrinə həmin işləri başqa vəzifəli şəxslərin hesabına yerinə yetirmək üçün tədbirlər görə bildiyi hallarda) həmin vəzifəli şəxsin əməli CM-in 312-1-ci maddəsi ilə, yəni vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) kimi tövsif edilməlidir. CM-ə 312-1-ci maddə əlavə edilənədək belə vəzifəli şəxslərin əməlləri rüşvət alma cinayəti kimi CM-in 311-ci maddəsi ilə tövsif edilirdi. Belə şəxslərə vəzifəli şəxslərin köməkçiləri, katibləri, hakimiyyət orqanlarında yüksək mövqeyə malik qulluqçular və s. şəxslər aid edilə bilər.

Vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsində ifadə olunan hərəkət CM-in 311-ci maddəsinə yeni daxil edilmiş əlamətdir. Başqa sözlə, rüşvət istəmədə

ifadə olunan hərəkət kriminallaşdırılmışdır. Vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, habelə xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair neməti, imtiyazı və ya güzəşti istəmə vəzifəli şəxsin özü, yaxud onu təmsil edən hər hansı başqa şəxs tərəfindən maddi və sair nemətin, imtiyazın və ya güzəşti almaq üçün öz iradəsini təzahür etdirən hər hansı əməli nəzərdə tutur. Belə iradə ifadəsi şifahi və ya yazılı formada və istənilən üsulla bildirilə bilər.

Vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair neməti, imtiyazı və ya güzəşti alması isə vəzifəli şəxsin özü, yaxud onu təmsil edən hər hansı başqa şəxs tərəfindən maddi və sair nemətin, imtiyazın və ya güzəştin əldə edilməsini, maddi və sair nemətə, imtiyaza və ya güzəştə yiyələnməsini nəzərdə tutur.

Vəzifəli şəxsin xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və yaxud üçüncü şəxslər üçün maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklif və ya vədi qəbul etməsi, maddi və sair nemət, imtiyaz və ya güzəşt barədə təklifə və ya vədə hər hansı formada razılıq verməsində, belə təklifləri faktiki olaraq qəbul etməsində ifadə olunur.

Qeyd edilməlidir ki, obyektiv cəhətdən həm rüşvət alma (passiv rüşvətxorluq), yəni vəzifəli şəxsin xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətə (hərəkətsizliyə) görə, eləcə də xidmət üzrə ümumi himayədarlıq və ya laqeydlik müqabilində özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, həm də rüşvət vermə (aktiv rüşvətxorluq), yəni xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar hər hansı hərəkətin edilməsi və ya belə hərəkətin edilməsindən imtina olunması müqabilində vəzifəli şəxsə özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair nemət, imtiyaz və ya güzəşt verilməsi formal tərkibli cinayətlərdir.

Bu **fəslin beşinci paraqrafında «Rüşvətxorluğun tövsifedici əlamətləri»** araşdırılır.

Bu paraqrafda, rüşvətxorluğla bağlı cinayətlərin ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı halları diqqətlə araşdırılıb, cinayət tərkiblərinin ağırlaşdırıcı və xüsusilə ağırlaşdırıcı hallarının müəyyən edilməsində istifadə

edilən cəzanı ağırlaşdıran hallar ətrafında nəzəri ədəbiyyatda mövcud olan müxtəlif mövqelərə toxunulmuş və onlara qiymət verilmişdir.

Dissertasiyanın **ikinci fəsli «İran İslam Respublikasının cinayət qanunvericiliyi üzrə rüşvətxorluqla mübarizə məsələləri»** adlanır və bu fəsil üç paraqrafdan ibarətdir.

Bu **fəslin birinci paraqrafında «İran İslam Respublikasında rüşvətxorluğa görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında»** məsələlər araşdırılır.

Bu paraqrafda, İran İslam Respublikasının rüşvətxorluğla bağlı cinayət qanunvericiliyinin inkişaf tarixini tədqiq edilir. Bu zaman İran İslam Respublikasının hüquq sisteminin, xüsusən cinayət hüququnun inkişafı gedişi də qısa şəkildə izlənilir. İran İslam Respublikasının 1926-cı il Cinayət Məcəlləsinin, 1983-cü il Təzirat Qanununun rüşvətxorluğa görə məsuliyyət müəyyən edən normaları nəzərdən keçirilir.

Bundan başqa, bu fəsildə, İran İslam Respublikasının cinayət qanunvericiliyi üzrə rüşvətxorluğa görə məsuliyyət məsələləri tədqiq edilir. Göstərilir ki, rüşvətxorluğa görə məsuliyyət müəyyən edən normalar İslam Cinayət Cəzaları Qanununda, «Rüşvətxorluğ, israf etmə və dələduzluq cinayətlərinə görə cəzanın gücləndirilməsi haqqında Qanun»da, «Silahlı qüvvələrdə törədilən cinayətlərə görə Cəza Qunununda» təsbit edilmişdir, həmçinin rüşvətxorluq cinayətlərinin qanuni ünsürü, maddi ünsürü və mənəvi (psixi) ünsürü nəzərdən keçirilir.

1990-cı illərin əvvəllərində cinayət hüququnda aparılan islahat nəticəsində vahid məcəlləşdirilmiş akt - İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanunu (İslam Cinayət Məcəlləsi, İslam Cinayət Qanunu) qəbul olunaraq qüvvəyə mindi. Bu qanun ölkənin son dövrünün qanun yaradıcılığının məhsulu idi. İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanunu iki mərhələdə qəbul edildi.

Birinci mərhələdə Məcəllənin 497 maddəni və 103 qeydi əhatə edən dörd hissəsi İran İslam Respublikasının İslam Şurası Məclisinin məhkəmə və hüquq məsələləri üzrə komissiyası tərəfindən miladi tarixlə 30 iyul 1991-ci ildə, hicri-şəmsi tarixlə 08.05.1370-ci ildə təsdiq edildi. Bir qədər əvvəl – miladi tarixlə 8 yanvar 1991-ci ildə, hicri-şəmsi tarixlə 18.10.1369-cu ildə isə İslam Cinayət Cəzaları Qanunu üçün 5 illik sınaq müddəti müəyyən olunmuşdu.

İkinci mərhələdə İslam Cinayət Cəzaları Qanununun 232 maddəni və 44 qeydi əhatə edən beşinci hissəsi miladi tarixlə 23 may 1996-cı ildə, hicri-şəmsi tarixlə 02.03.1375-ci ildə İran İslam Respublikasının İslam Şurası Məclisinin açıq iclasında qəbul edildi və miladi tarixlə 27 may 1996-

cı ildə, hicri-şəmsi tarixlə 06.03.1375-ci ildə İran İslam Respublikası Konstitusiyasının Müdafiəsi Şurasında təsdiq edildi.

Beləliklə, İran İslam Respublikasının hazırda qüvvədə olan İslam Cinayət Cəzaları Qanunu ilkin redaksiyasında beş hissədən ibarət olub 729 maddəni və 147 qeydi əhatə edir.

Bu **fəslin ikinci paraqrafında «İran İslam Respublikasının qüvvədə olan cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyətin tənzimlənməsi məsələləri»** tədqiq edilir.

Bu paraqrafda, qeyq edilir ki, rüşvətxorluq cinayətləri ilə bağlı məsuliyyət məsələləri İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanununun, «Rüşvətxorluq, israf etmə və dələduzluq cinayətlərinə görə cəzanın gücləndirilməsi haqqında Qanun»un, «Silahlı qüvvələrdə törədilən cinayətlərə görə Cəza Qununu»nun müvafiq maddələri ilə tənzimlənir.

İran İslam Respublikasının İslam Cinayət Cəzaları Qanununun V hissəsinin («Məhkəmə cəzaları və çəkindirici tədbirlər»), 11-ci bölməsinin («Rüşvətxorluq, qanunsuz gəlir əldə etmə, dələduzluq»), 588-594-cü maddələrində rüşvətxorluq cinayətlərinə görə məsuliyyət müəyyən edilmişdir.

Qanunun 588 və 589-cu maddələrində rüşvət almağa, 590 və 592-ci maddələrində rüşvət verməyə, 593-cü maddəsində rüşvətxorluq cinayətlərində vasitəçiliyə görə məsuliyyət nəzərdə tutulmuşdur.

Bu **fəslin üçüncü paraqrafında «İran İslam Respublikasında rüşvətxorluq cinayətləri ilə mübarizənin əsas xüsusiyyətləri»** tədqiq edilir.

Bu paraqrafda, haqlı olaraq qeyd edilir ki, rüşvətin təsirləri və nəticələri coxdur. Ümumiyyətlə bu gün rüşvətin parametrləri və növləri genişdir. İnsanlar arasında əlaqələr, münasibətlər genişləndikcə onun da səviyyəsi və növləri genişlənir və özündən sonra çoxsaylı zərərli və dağıdıcı nəticələr qoyur.

Bu paraqrafda, onların bəziləri araşdırılmışdır və onların təsnifatı verilmişdir. Rüşvətxorluğa qarşı mübarizə yollarının bəziləri nəzərdən keçirilərək aşağıdakılar göstərilmişdir:

1. Kütləvi rüşvətxorluq dövlətin maliyyə mənbəyindən böyük məbləğlərin bir qrup adamlar üçün xərclənməsinə və çoxsaylı imtiyazlardan istifadə olunur. Bu isə cəmiyyət əhalisinin bir qrupunun yaxşılaşmasına və bir hissəsinin varlanmasına səbəb olur, bir hissəsi isə lümpenləşir.

2. Rüşvətxorluq cəmiyyətin mənəvi əxlaqi dəyərlərini məhv edir. Rüşvətxorluq rahatlıqla, asanlıqla cəmiyyətin əxlaqi dəyərlərini, qayda-

qanunlarını məhv edir. Bədbinlik yaradır, etimadsızlıq, tənbəllik, etiqadsızlıq yaranır, hərc-mərclik baş alıb gedir.

Həmçinin rüşvətxorluq nizam-intizamı, qanunilik əxlaqını dağıdır. Zaman keçdikcə ölkəni zavala və əxlaqsızlığa doğru aparır. Ümumiyyətlə, rüşvət cəmiyyətin əxlaqı əsaslarını sarsıdır. Rüşvətxorluq və rüşvətin digər əsasları bundan ibarətdir ki, kapital sahibləri öz kapitallarını və sərvətini ölkədən çıxarmağa can atır. Çünki, korrupsiya geniş parametrlər əldə etdikdə daha çox adamlara rüşvət verilir ki, öz işlərini qanuni şəklə, nizama salsınlar. Bu korrupsiya daha yüksək səviyyəyə çatdıqda isə belə bir atmosferdə xüsusi sektorun fəaliyyəti çətinləşir və ya qeyri-mümkün olur.

Ölkənin idarə və inzibati sistemində pozğunluq. Rüşvətxorluğun və rüşvətin başqa fəsadlarından biri budur ki, ölkənin idarəçilik sistemini zəiflədir. İran kimi bir ölkənin idarəçilik sistemi köhnə metodlara malik olduğundan hakim-ağa münasibətləri hökmranlıq edir və ona nəzarət etmək çətin olur. İndi bu sistemə başqa zəif cəhətləri və amilləri də nəzərə alsaq və rüşvəti də ona əlavə etsək ölkənin idarəçilik sistemində nə kimi pozğunluq və problemlər yaradacağı məlum olacaqdır. Əlaqələr qayda-qanunların yerini tutacaq işçilər, məmurlar arasında etimadsızlıq hissi yaranacaq, yuxarıda qeyd olunan amillər əsasən yüksək rütbəli personellə aşağı rütbəli personel arasında, ümumiyyətlə bütün cəmiyyətdə idarəçilik sisteminə etimadsızlıq hissi rüşvət əsasında formalaşacaqdır.

Rüşvət idarəçilik sisteminin inkişafını pozur və dövlət idarəçiliyi üzrə qərar qəbul edilən ibarəçilik mərkəzlərində səriştəsiz, işə yaramayan adamlar arasında bəzən toqquşmalara səbəb olacaq, həmçinin, bacarıqlı, qanuna riayət edən adamların işdən kənarlaşdırılmasına səbəb olacaqdır.

Rüşvətxorluq cinayətlərinin qarşısı alınması və mübarizə yolları hal-hazırda yalnız rüşvət, məhkəməyə və ya dövlət məmuruna pul şəklində rüşvət verilməsi əsaslı problem deyildir. Əksinə bu bəlanın parametrləri daha genişdir. Rüşvət cinayəti çox dolaşıq yollarla və geniş parametrlərlə həyata keçirilir, çox şaxəlidir. Hətta beynəlxalq səviyyədə həyata keçirilir. Buna görə də bu fenomenlə mübarizə apararkən yalnız iqtisadi, maliyyə cinayətlərinə hüquqi və fiqhi (şəriət-islam hüquqşünaslığı) nəzərdən baxmaq lazım deyil. Yalnız aşağı, orta səviyyəli dövlət məmurlarının ağır cəzalarla cəzalandırılması ilə onunla mübarizə etmək bir fayda əldə olunmaz, ölkəyə o qədər də fayda verməz. Əksinə belə olduqda rüşvətxorluq şəbəkəsi daha mürəkkəbləşəcək və mafiya şəkli alacaqdır. Təəssüflər olsun ki, bu məsələ həmişə səthi şəkildə öyrənilmişdir. II Dünya Müharibəsindən sonra, korrupsiya və rüşvətxorluq geniş miqyas aldığından

İranın hökumət aparatı bu ictimai bəla ilə dəfələrlə mübarizə aparmışdır və bu mübarizəni bir məqsəd kimi öz qarşısına qoymuşdur.

Aşağıda qeyd olan baş nazirlərin hakimiyyəti zamanı əsaslı şəkildə maliyyə-iqtisadi korrupsiyaya qarşı mübarizə aparılmışdır:

Rəzmara baş nazir olan dövrdə 1328-ci ildən (1949-cu ildən) etibarən korrupsiyaya qarşı dövlət səviyyəsində mübarizə başlandı və təqribən bir il davam etdi. Dövlət aparatı korrupsioner məmurlardan təmizləndi. Bu məqsədlə dövlət məmurlarının təsnifatı aparıldı və «c» bəndində qeyd olunan məmurların hamısı işdən azad olunurdu və onlara hər hansı bir dövlət vəzifəsinin həvalə olunmasına qadağa qoyuldu.

Əmininin baş nazir olduğu dövr. Əmininin baş nazir olduğu dövrdə 1339-cu ildən (1960-cı ildən) etibarən korrupsiyaya qarşı mübarizə başlandı. Bu dövrdə Rəzmaranın baş nazir olduğu dövrə nisbətən korrupsiyaya qarşı daha kəskin mübarizə başlandı və inzibati inqilab adlandırıldı. Dövlət aparatı korrupsioner məmurlardan təmizlənməyə başladı.

Əmir Abbas Hoveydanın baş nazir olduğu 8 il ərzində 1970-1978-ci illər korrupsiyaya qarşı heç bir mübarizə aparılmadı. Ölkədə İslam inqilabının ərəfəsində Cəmşid Amuzqa baş nazir olan dövrdə 1978-ci ildə korrupsiyaya qarşı mübarizə elan olunlu. Lakin heç bir uğur qazanmadı.

1979-cu ilin fevralın 11-də İslam inqilabının qələbəsi ilə dövlət aparatının bütün strukturunda əsaslı-radikal dəyişikliklər baş verdi və korrupsionerlərin, əksəriyyəti İnqilab Məhkəməsinin hökmü ilə edam olundular. Həbsxanaya atıldılar, bir çoxları isə xarici ölkələrə qaçaraq siyasi sığınacaq qazandılar. Korrupsionerlərin başçıları olan sabiq baş nazir Əmir Abbas Hoveyda, general Nəsiri İnqilab Məhkəməsinin hökmü ilə edam olundular.

İslam İnqilabının qələbəsindən sonra qısa bir müddət ərzində iqtisadi və maliyyə korrupsiyası tamamilə dayandı. İraqla müharibə başa çatdıqdan sonra isə ölkədə yenidən korrupsiya baş qaldırdı. İslam Şura Məclisi ticarət-kommersiya fəaliyyəti zamanı faiz qoyulması qadağan olundu. Bundan əlavə maliyyə korrupsiyası, rüşvətxorluq və fırıldaqçılığa qarşı mübarizənin gücləndirilməsi «qanunun» təsdiq olunması ilə bu mübarizə yenə də davam etdirilir.

Ölkənin Ali ruhani başçısı Ayətullah S.Ə.Xamneyi 1382-ci ilin (2003-cü ilin) əvvəlində verdiyi fərmanla üç güc nazirliyinə bu bəla ilə mübarizə göstərişi verdi.

Hal-hazırda da dövlət korrupsiya və rüşvətxorluqla mübarizə aparmaq üçün idarəçilik sisteminin sağlamlığını gücləndirir.

Bəla burasındadır ki, heç bir ölkə rüşvətin kökünü kəsə bilmir. Amma onun nəzarət altına alınması mövcuddur. Rüşvətlə mübarizə aparmaq üçün hərtərəfli şəkildə onunla mübarizə aparmalı, cəmiyyətin bütün təbəqələri tərəfindən himayə olunmalıdır.

Bunun üçün ali dövlət rəhbərlərinin, yüksək rütbəli dövlət məmurlarının, Ağsaqqallar Şurasının, siyasətçilərin və ümumxalq kütləsinin köməyinə ehtiyac vardır.

Rüşvətxorluğa qarşı mübarizə yollarının bəziləri aşağıdakılardan ibarətdir:

1) Korrupsiya və rüşvətxorluğun qarşısının alınması üçün onunla əsaslı metodoloci və elmi üsullarla mübarizə aparılmalıdır. Bunun da səbəbi ondan ibarətdir ki, indiyədək inzibati-iqtisadi korrupsiyaya qarşı mübarizə effektiv nəticə verməmişdir. Onun da əsas səbəbi elmi və metodoloci əsaslarla aparılmamasıdır. İnzibati korrupsiyaya və o cümlədən rüşvətxorluğa qarşı mübarizə aparmaq üçün əsaslı-fundamental proqram hazırlanmalıdır. Mütəxəssislərdən ibarət xüsusi komissiyalar yaradılmalı, korrupsiya və rüşvətxorluğu yaradan səbəblər öyrənilib aşkar edilməli, aradan qaldırılmalıdır.

2) Korrupsiya və rüşvətxorluğa qarşı aparılan ikinci amil və faktor Azad Bazar İqtisadiyyatının yaradılmasıdır və bu zaman dövlətin iqtisadi məsələlərə dəlalət etməsi maksimum səviyyədə minimuma endirilməlidir. Çünki, belə bir atmosferdə xüsusi sektor və kiçik şirkətlər öz kapitallarını ölkədən çıxarıb xarici ölkələrə çıxarmağa səy göstərirlər. Azad iqtisadiyyat yarandıqda onun əksinə olan proses baş verir və ədalətli rəqabət üçün zəmin yaranır. Deməli dövlətin iqtisadi məsələlərə dəlalətinin minimuma endirilməsi səmərəli olacaqdır.

3) Üçüncü amil və faktor idarə sisteminin strukturunda islahatların aparılmasıdır. Belə ki, bir çox inkişaf etmiş ölkələr idarəetmə strukturunda islahatlar aparmış və iqtisadiyyat elektron texnologiyasının köməyi ilə nəzarət edirlər. Amma İran kimi ölkələrdə ağa və nökər idarəçilik sistemi mövcuddur - belə olduqda isə korrupsiya - rüşvətxorluq baş alıb gedir. Bir çox ölkələr idarəetmə strukturunda dəyişikliklər aparmaqla yüksək nəticələr əldə etmişlər. Odur ki, dövlət üç güc nazirliklərinin köməyi ilə idarəetmə sistemində islahatlar aparmaqla 70 illik durğunluq dövrünü aradan qaldıra bilər və s.

Dissertasiyanın **üçüncü fəsli «Xarici ölkələrin cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyət və onunla mübarizənin əsas xüsusiyyətləri»** adlanır və bu fəsil üç paraqrafdan ibarətdir.

Bu **fəslin birinci paraqrafında «Rüşvətxorluq cinayətlərinin kriminoloji xüsusiyyətləri, vəziyyəti və dinamikası»** araşdırılır.

Bu paraqrafda, rüşvətxorluğla bağlı cinayət-hüquqi normaların təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 311.1.-ci, 311.2.-ci maddələri, 311-ci maddəsinin qeydi, 311.2.2.-ci maddəsində «xeyli miqdar» ağırlaşdırıcı və 311.3.3.-cü maddəsində «külli miqdar» xüsusilə ağırlaşdırıcı əlamətləri nəzərdə tutan 311.2 və 311.3 maddələrin sanksiyaları, 312-ci maddəsinin qeydi, yeni 312-2-ci maddəsinin daxil edilməsi, yeni 312-2-ci maddəsinin qeydi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 16-cı və bununla belə 311.3.2-ci maddəsi və 312. 2-ci hissəsindən rüşvət almanın və rüşvət vermənin təkrar törədilməsinin çıxarılması və s. məsələləri ilə bağlı xeyli maraqlı təklif və tövsiyyələr işlənib hazırlanmışdır, rüşvətxorluğla bağlı olan cinayətlərin statistik məlumatlarını - Azərbaycan Respublikasında 1980-2000-ci və 2001-2010-cu illər üzrə cinayətkarlığın strukturunda rüşvətxorluq cinayətləri ilə bağlı göstəricilər, Azərbaycan Respublikasında 1992-2010-cu illər üzrə cinayət törədilməsi müəyyən edilmiş şəxslərin strukturunda rüşvətxorluq cinayəti törətmiş şəxslərlə bağlı göstəricilər və s.verilərək ətraflı analiz edilmişdir.

Bu **fəslin ikinci paraqrafında «Xarici ölkələrin cinayət qanunvericiliyində rüşvətxorluğa görə məsuliyyət məsələləri»** araşdırılır.

Xarici ölkələrin rüşvətxorluq haqqında cinayət qanunvericiliyinin öyrənilməsi həm elmi, həm də praktik cəhətdən aktual məsələdir. Belə ki, rüşvətxorluqla bağlı araşdırmalarda müqayisəli tədqiqatların aparılmasının, xarici ölkələrin qanunvericiliklərinin öyrənilməsinin, onların qiymətli cəhətlərinin və qüsurlarının aşkar edilməsinin xüsusi əhəmiyyəti vardır.

Bu **fəslin üçüncü paraqrafında «Xarici ölkələrdə rüşvətxorluq cinayətləri ilə mübarizənin əsas xüsusiyyətləri»** tədqiq edilir.

Azərbaycan Respublikasında və İran İslam Respublikasında rüşvətxorluq cinayətləri ilə mübarizənin uğurla aparılması məsələsində xarici ölkələrdə rüşvətxorluğa qarşı tətbiq edilən cinayət-hüquqi və digər tədbirlərin öyrənilməsi əhəmiyyət kəsb edir. Bu paraqrafda, rüşvətxorluğun daha geniş yayıldığı, həm də dünyanın müxtəlif regionlarını təmsil edən bəzi ölkələrin rüşvətxorluqla mübarizə təcrübəsi nəzərdən keçirilmişdir.

İşin **nəticə** hissəsində, rüşvətxorluğla bağlı problemin həlli istiqamətində nəzəri, qanunvericilik və təcrübi cəhətdən əhəmiyyət kəsb edən təklif və tövsiyyələr işlənib hazırlanmışdır.

**Dissertasiya tədqiqatının əsas müddəaları çap etdirilmiş aşağıdakı elmi işlərdə öz əksini tapmışdlır:**

1. Об истории развития законодательства, связанного с преступлениями по взяточничеству // Российская Академия Наук. Институт Языкознания. Кавказоведение. № 17. Москва. 2010. с.135-143.

2. İran İslam Respublikasının cinayət qanunvericiliyi üzrə rüşvətxorluğa görə məsuliyyətin tənzimlənməsi məsələsi // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri. «DİRÇƏLİŞ-XXI əsr». Bakı, 162-163/ 2011. s.191-198.

3. Rüşvətxorluq cinayətlərinin obyekti və predmeti haqqında // Ulu Öndər Heydər Əliyevin ad gününə və Azərbaycan Respublikasının dövlətçiliyinin bərpasının 20 illiyinə həsr olunmuş «Hüquq elminin və təhsilinin müasir problemləri və həlli yolları» adlı beynəlxalq konfransın Materialları. II hissə. Bakı, 2011. s.171-175.

4. Xarici ölkələrin cinayət qanunvericiliyi üzrə rüşvətxorluq cinayətlərinə görə məsuliyyətin tənzimlənməsi məsələləri // Turan Stratecik Araştırmaları Merkezi. Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi. Turan - sam. Yıl: 2011. Cilt: 3. sayı: 10. İlkbahar. 2011. www.turansam.org s.67-72.

5. Korrupsiya və rüşvətxorluğun anlayışına dair // Ümumilli Liderimiz Heydər Əliyevin anadan olmasının 88-ci ildönümünə həsr olunmuş «Dövlət və hüquq quruculuğunun aktual problemləri» mövzusunda 11-ci Respublika Elmi-Praktik Konfransının Materialları. II cild. 11-12 may. Bakı, 2011. s.67-68.

6. Rüşvətxorluq cinayətlərinin ictimai təhlükəliliyi, vəziyyəti və dinamikasına dair // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. № 55. Bakı, 2011. s.131-136.

7. Rüşvətxorluğun subyektiv əlamətləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. № 56. Bakı, 2012. s.96-99.

8. İran İslam Respublikasının rüşvətxorluqla bağlı cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında // Kaspi. Geosiyasi Araşdırmalar Mərkəzi. www. GEO STRATEGIYA aylıq ictimai-siyasi, elmi – populyar jurnal. №05 (11). Bakı, sentyabr – oktyabr 2012. strategiya. az. s.64-67.

9. Некоторые вопросы регламентации ответственности за взяточничество в уголовном законодательстве Азербайджанской Республики, Российской Федерации и Исламской Республики Иран. // Право и государство: теория и практика. Федеральный научный юридический ежемесячный журнал. № 8 (92). Москва, 2012. с.135-138.

**Алирза Имамали оглы Кияни Шахмарс**

**Уголовно-правовые и криминологические проблемы борьбы с взяточничеством (по уголовному законодательствуАзербайджанской Республики и Исламской Республики Иран)**

**Резюме**

Диссертация Алирзы Имамали оглы Кияни Шахмарса на тему: «Уголовно-правовые и криминологические проблемы борьбы со взяточничеством (по уголовному законодательству Азербайджанской Республики и Исламской Республики Иран)» на соискание учёной степени доктора философии по праву по специальности 5611.01 – «Уголовное право и криминология; уголовно-исполнительное право» структурно состоит из введения, трёх глав, охватывающих одиннадцать параграфов, заключения и списка использованной литературы.

Во **введении** диссертации обосновывается актуальность темы исследования, степень разработанности исследуемой проблемы, определяются объект и предмет исследования, цели и задачи исследования, методология, научная новизна, теоретическая и практическая значимость исследования, формулируются основные положения, выносимые на защиту, содержатся сведения об апробации результатов диссертационного исследования.

**Первая глава диссертации – «Юридический анализ основных и квалифицирующих признаков составов преступлений, предусматривающих ответственность за взяточничество по уголовному законодательству Азербайджанской Республики»** состоит из пяти параграфов и посвящена исследованию вопроса об истории развития уголовного законодательства Азербайджанской Республики о взяточничестве, в которой исследуется правовая природа взяточничества, анализируются различные этапы развития и совершенствования института взяточничества в период присоединения Азербайджана в начале XIX века к России, в Уложениях о наказаниях уголовных и исправительных 1845г., в Уголовном уложении 1903г., в уголовном законодательстве Азербайджана советского и демократического периодов, а также понятие коррупции и взяточничества, объективные, субъективные, квалифицирующие и особо квалифицирующие признаки взяточничества.

**Вторая глава диссертации – «Вопросы борьбы со взяточничеством по уголовному законодательству Исламской Республики Иран»** состоит из трёх параграфов и посвящена исследованию вопроса об истории развития уголовного законодательства Исламской Республики Иран о взяточничестве, вопросы дифференциации уголовной ответственности за взяточничество и специфические особенности борьбы со взяточничеством применительно к уголовному законодательству Исламской Республики Иран.

**Третья глава диссертации – «Вопросы ответственности и специфических особенностей борьбы со взяточничеством по уголовному законодательству зарубежных государств»** состоит из трёх параграфов и посвящена исследованию вопроса о состоянии, структуре и динамике взяточничества, а также вопроса об ответственности за взяточничество по уголовному законодательству зарубежных государств. В этой главе анализируются статистические данные МВД Азербайджанской Республики применительно к взяточничеству, в частности к составам 311 УК АР – получение взятки (пассивное взяточничество) , 312 УК АР – дача взятки (активное взяточничество) , 312-1 УК АР – незаконное воздействие на решение должностного лица (торговля репутацией) за 1980-2010гг., а также вопросы о сравнительно-правовом анализе взяточничества применительно к уголовному законодательству зарубежных государств.

В **заключении** диссертации сформулированы основные выводы и даны ряд рекомендаций и положений по совершенствованию уголовного законодательства Азербайджанской Республики и Исламской Республики Иран применительно к взяточничеству в уголовном праве.

**Alirza Imamali oglu Kiyani Shahmars**

# Criminal law and criminological problems of struggle against bribery (under the criminal legislation of the Azerbaijan Republic and the Islamic Republic of Iran)

## Summary

Dissertation Alirza Imamali oglu Kiyani Shahmars on "Criminal law and criminological problems of struggle against bribery (under the criminal legislation of the Azerbaijan Republic and the Islamic Republic of Iran)" for the degree of Doctor of Philosophy in Law, specialty 5611.01 - "Criminal Law and Criminology; penal law "structurally consists of an introduction, three chapters, covering eleven paragraphs, conclusion and bibliography.

In the **introduction** of the urgency of the dissertation research topic, the degree of elaboration of the studied problems are determined by the object and subject of research, objectives and tasks of the research methodology, scientific novelty, the theoretical and practical significance of the study, formulated the basic provisions for the defense, contains information about the testing results of the research.

The **first chapter of the thesis - "The legal analysis of basic and aggravating circumstances of the crimes, providing for liability for bribery in the criminal legislation of the Azerbaijan Republic"** consists of five sections devoted to the study of the question of the history of the criminal legislation of the Azerbaijan Republic on bribery, which investigated the legal nature of bribery and analyzes different stages of development and improvement of the Institute of bribery during the joining of Azerbaijan at the beginning of the XIX century in Russia, in the Penal Code and Criminal Corrections 1845. in 1903, the Criminal Law., in the criminal law of Azerbaijan Soviet and democratic periods, as well as the concept of corruption and bribery, objective, subjective, qualifying and particularly qualifying signs of bribery.

The **second chapter - "Questions combat bribery in the criminal laws of the Islamic Republic of Iran"** consists of three sections devoted to the study of the question of the history of the criminal laws of the Islamic Republic of Iran on bribery, questions of differentiation of criminal liability for bribery and specific features to combat bribery in relation to the criminal the laws of the Islamic Republic of Iran.

The **third chapter of the thesis - "Questions of liability and the specific characteristics of the fight against bribery in criminal law of foreign countries"** consists of three sections devoted to the study of the question of the state, structure and dynamics of bribery, as well as the question of liability for bribery under the criminal law of foreign countries. This chapter analyzes the statistics Ministry of Internal Affairs of the Republic of Azerbaijan in relation to bribery, in particular to compositions 311 of the Criminal Code - accepting a bribe (passive bribery), 312 of the Criminal Code - a bribe (active bribery), 312-1 of the Criminal Code - illegal influence on the decision of an Face (trade reputation) for 1980-2010gg., as well as questions about the comparative legal analysis of bribery in relation to the criminal law of foreign countries.

In **conclusion**, the thesis formulated the main conclusions and given a number of recommendations and regulations for improving the criminal legislation of the Azerbaijan Republic and the Islamic Republic of Iran with regard to bribery in criminal law.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**Алирза Имамали оглы Кияни Шахмарс**

# УГОЛОВНО-ПРАВОВЫЕ И КРИМИНОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ БОРЬБЫ СО ВЗЯТОЧНИЧЕСТВОМ (ПО УГОЛОВНОМУ ЗАКОНОДАТЕЛЬСТВУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН)

**5611.01 – уголовное право и криминология;**
**уголовно-исполнительное право**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени**
**доктора философии по праву**

**БАКУ – 2015**